*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 10 (526)

15 may
2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## PREZİDENT İLHAM ƏLİYEV BAKIDA "DİNAMO" OTELİNİN AÇILIŞINDA İŞTİRAK EDİB

***Mayın 11-də Bakının Səbail rayonunda "Dinamo" otelinin açılış mərasimi keçirilib.***
***AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.***



Otelin baş meneceri Alberto Matos və dizayneri Lindo Pinto burada aparılan əsaslı təmir-yenidənqurma işləri barədə Prezident İlham Əliyevə məlumat verdilər.

Dövlətimizin başçısı və xanımı otelin rəmzi açılışını bildirən lenti kəsdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oteldə yaradılan şəraitlə tanış oldular.

Nəfis tərtibatla qurulan otelin interyeri müasirliyi ilə diqqəti cəlb edir. Burada aparılan yenidənqurma işləri nəticəsində qonaqların qalması, yüksək səviyyədə istirahət etməsi, vaxtlarını səmərəli keçirməsi üçün maksimum imkanlar yaradılıb. İdmançıların və atletlərin arenası olan bu məkan öz yeni konsepti ilə dinamik və müasir həyat tərzi axtaranlar üçün ideal bir məkandır. Otelin restoranlarının nadir bədii konsepti də diqqət çəkir. Restoranlarda otelin qonaqlarının və müştərilərin zövqünə uyğun xidmət göstərmək üçün hərtərəfli şərait var. Burada qonaqlara milli və dünya mətbəxinin nəfis təamları təqdim ediləcək.

Mehmanxananın idman zalında müasir qurğular quraşdırılıb, qonaqların və atletlərin idmanla məşğul olmaları üçün geniş imkanlar yaradılıb. Bundan başqa, oteldə üzgüçülük hovuzu, SPA da qonaqların ixtiyarına veriləcək.

Ümumi sahəsi 7500 kvadratmetrə yaxın olan otelin paytaxtın əsas işgüzar və mədəni mərkəzlərinə yaxın olması qonaqlara vaxtlarını daha səmərəli keçirmək üçün hərtərəfli imkanlar yaradır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bütün sahələrdə olduğu kimi turizm sektorunun əsas xidmət istiqamətlərindən olan müasir otel sisteminin yaradılması baxımından son illərdə çox mühüm işlər görülüb. "Dinamo" otelində müxtəlif kateqoriyalara uyğun 28 otaq var. Otaqların interyeri tərtib edilərkən qonaqların zövqünü oxşaması və rahatlıq əsas meyar kimi seçilib.

Otellə tanışlıqdan sonra Azərbaycan Prezidenti kollektivlə görüşdü.

**Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Mən sizi Bakıda yeni otelin açılışı münasibətilə təbrik edirəm, çox gözəl hadisədir. "Dinamo" oteli çox gözəl səviyyədə tikilib istifadəyə verilir. Bildiyiniz kimi, bu otel tarixi binada yerləşir. Bu binanın böyük tarixi var və çox şadam ki, binanın tarixi memarlığı tam qorunub saxlanılıb və daxili dizaynı da göz oxşayır. Burada istirahət edən qonaqlar özlərini evlərindəki kimi hiss edəcəklər. Çox gözəl dizayn işləri görülüb. Xanım Pintoya xüsusi minnətdarlığımı bildirirəm ki, doğrudan da dizayn göz oxşayır. Burada bütün işlər çox müasir və yüksək səviyyədə görülübdür. Otelin yerləşməsi də çox əlverişlidir, şəhərin mərkəzidir. Burada qalan qonaqlar şəhərin ən baxımlı yerlərinə piyada rahat gedib çata bilərlər. Turistlər buradan həm bulvara, həm İçərişəhərə, şəhərimizin mərkəzi yerlərinə çox rahat gedib çıxa bilərlər.

Əlbəttə, bu otelin fəaliyyəti ölkəmizdə turizmin inkişafına təkan verəcək. Çünki bu, indi bizim üçün əsas istiqamətlərdən biridir, turistlərin sayı ölkəmizdə artır. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə isə 20 faiz artıb. Bu ilin dörd ayında isə Azərbaycana gələn turistlərin sayı 13 faiz artıbdır. İndi "ASAN Viza" rejimindən istifadə edərək 90-dan çox ölkədən turistlər gələ bilərlər. Bizim 7 aeroportumuz var, gözəl infrastruktur layihələri icra edilir. Bu yaxınlarda turizm üzrə Dövlət Agentliyi yaradılıb. Əlbəttə, bu Agentlik turizmin inkişafına təkan verəcək və Azərbaycanda müasir turizm sənayesi yaradılacaqdır.

Eyni zamanda, bu otelin fəaliyyətə başlaması ölkəmizin ümumi inkişafını göstərir. Şəhərimizin gözəlliyi bu gün artıq dünya birliyi tərəfindən tanınır. Ölkəmizdə keçirilmiş böyük tədbirlər, idman tədbirləri, onların arasında əlbəttə ki, Formula 1 yarışı dünyanın diqqətini Azərbaycana cəlb edir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biri kimi öz qapılarını dostlarının üzünə açır.

**Sonra çıxışını ingilis dilində davam etdirən Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Mən həqiqətən də çox şadam ki, biz bu gün şəhərimizin tarixi binasında yerləşən "Dinamo" otelinin rəsmi açılış mərasimində iştirak edirik. Çox şadam ki, binanın memarlıq üslubu tamamilə qorunub saxlanılmışdır. Bu binanın böyük tarixi var. Çox sevindirici haldır ki, biz bu binanı inşa olunduğu üslubda qoruyub saxlaya bilmişik. Bunun vacibliyini xüsusilə qeyd etmək istəyirəm. Çünki bilirəm ki, bu binanın sökülməsi və onun yerinə yeni göydələnin tikintisi planları var idi. Lakin mən bu barədə məlumat alan kimi, əlbəttə, bu planların qarşısını aldım. Çünki biz tariximizi, memarlığımızı qorumalıyıq və Bakı şəhərinin memarlığının inkişafını qorumalıyıq.

Əlbəttə, şəhər genişlənməlidir, inkişaf etməlidir, hündürmərtəbəli binalar, göydələnlər də olmalıdır. Lakin, eyni zamanda, tarixi keçmişimiz və müasir tələblərimiz arasında harmoniya da olmalıdır. Hesab edirəm ki, Bakı bu iki vacib elementi özündə birləşdirən dünyanın azsaylı şəhərlərindən biridir. Biz tariximizi, qədim tariximizi qoruyuruq və eyni zamanda, Bakıda inşa olunmuş müasir binalar şəhərin ümumi görünüşü ilə ziddiyyət təşkil etmir. Buna görə də Bakı öz qonaqları və şəhərin sakinləri üçün xoş və rahat nadir ab-havanı qoruyub saxlayır.

Əlbəttə, "Dinamo" otelinin açılışı əlamətdar hadisədir. Çünki biz burada xanım Pintonun rəhbərlik etdiyi qrupun, dünyaca məşhur şirkətin sənət əsərini görürük. Biz sizin verdiyiniz töhfəni yüksək qiymətləndiririk. Əlbəttə ki, sizin adınız qonaqları mütləq buraya cəlb edəcək. Otelin müxtəlif yerlərinə baxarkən biz bir daha görürük ki, sizin şirkətin belə yüksək beynəlxalq standarta malik olması təsadüfi deyil. Buna görə minnətdarlığımı bildirirəm. Əminəm ki, oteldə qalanlar, nahar yeməyi üçün buraya gələnlər və ya yaxşı vaxt keçirmək istəyənlər özlərini həqiqətən də çox xüsusi bir mühitdə hiss edəcəklər.

Şəhər sürətlə inkişaf edir. Hesab edirəm ki, bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və biz irsimizi qorumalıyıq, burada yaşayan insanlar və qonaqlarımız üçün daha da yaxşı şərait qurmalıyıq.

Sizə uğurlar arzulayıram. Şadam ki, "Dinamo" adı və keçmişin rəmzləri qalıb. Bu, bir daha onu nümayiş etdirir ki, biz tariximizin bütün dövrlərinə hörmətlə yanaşırıq. Bu, bizi daha güclü edir və bu, həqiqətdir.

Bir daha sizi təbrik edirəm. Azərbaycanı regionumuzun ən cəlbedici turizm məkanlarından birinə çevirməyə kömək etmək işinizdə burada sizə çox məhsuldar fəaliyyət arzu edirəm. Çox sağ olun.

**x x x x**

Bakıda yeni müasir otellərin, mehmanxana komplekslərinin istifadəyə verilməsi paytaxtımızın turizm potensialını tam nümayiş etdirməyə şərait yaradır. Bununla yanaşı, bu tədbirlər ölkəmizdə mühüm sosial infrastruktur layihələrinin icrasının davamlı olduğunu və müxtəlif sahələri əhatə etdiyini göstərir. Bu cür layihələrin uğurla həyata keçirilməsi sübut edir ki, Azərbaycanda başlanılan bütün işlər vaxtında və keyfiyyətlə yerinə yetirilir.

Sonda xatirə şəkli çəkdirildi.

## BAŞ İDARƏDƏ MİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 95-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ TƏDBİR KEÇİRİLİB

Milli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə mayın 4-də Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun iştirak etdiyi tədbirə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri üzrə fəlsəfə doktoru Leyla Hüseynova fəxri qonaq qismində dəvət olunub.





Tədbirə başlamazdan öncə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin müşayiətilə Dövlət Himni ifa edilib.

Dahi rəhbərin həyat və fəaliyyətini əks etdirən videofilmin nümayişindən sonra "Heydər Əliyevin Azərbaycanın dünya dövlətləri arasında nüfuzunun formalaşmasında rolu" mövzusunda çıxış üçün söz tarixçi L.Hüseynovaya verilib. Məruzəçi dahi şəxsiyyətin doğma xalqına həsr olunmuş ömür yolu, ictimai-siyasi və zəngin dövlət quruculuğu fəaliyyəti, müstəsna şəxsi keyfiyyətlərindən söz açaraq, bu keyfiyyətlərin onun rəhbərlik etdiyi dövrün bütün mərhələlərində özünü bariz şəkildə büruzə verdiyini diqqətə çatdırdı. Qeyd etdi ki, Heydər Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında Milli Liderin yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlığı və tükənməz enerjisi istər ötən əsrin 70-80-ci illəri, istərsə də 1993-cü ildən sonrakı dövrü xarakterizə edən başlıca amillərdir: "Zamanın yetişdirdiyi Heydər Əliyev kimi nadir dühaların qismətinə nəinki təmsil etdikləri xalqın taleyində, eləcə də dünya siyasətinin formalaşmasında böyük missiyanı həyata keçirmək səadəti nəsib olub. Azərbaycanın və böyük türk dünyasının bu qüdrətli şəxsiyyəti və lideri millətimizi zamanın ən çətin sınaqlarından məharətlə çıxararaq, ölkəmizin ictimai-siyasi, iqtisadi və mənəvi tərəqqisinə, xalqımızın birliyinə nail olub".

L.Hüseynova hər zaman doğma xalqının təəssübkeşliyini çəkən uzaqgörən siyasi xadim Heydər Əliyevin hələ 70-80-ci illərdə respublikaya rəhbərlik etdiyi dönəmdə orduda, təhlükəsizlik orqanlarının tərkibində milli kadrların sayının artırılması, azərbaycanlı gənclərin hərbi təhsilə cəlb olunması üçün böyük işlər gördüyünü xüsusilə qeyd etdi. Bildirdi ki, məhz o dövrdə Ulu Öndər tərəfindən özülü qoyulmuş bir çox sahələrin inkişaf etdirilməsi sayəsində yenidən müstəqillik əldə edən Azərbaycan Respublikası bu gün regionun şəriksiz liderinə çevrilib.

Daha sonra tədbirin aparıcısı dünya tarixinin qüdrətli şəxsiyyətlərindən olan Heydər Əliyevin "Azərbaycan dünyaya günəş kimi doğacaq" fikrini səsləndirərək qeyd etdi ki, həqiqətən də, bu gün Respublika Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasəti nəticəsində ölkəmiz dünyaya bir günəş kimi parladı. Milli Liderimiz 2003-cü ilin prezident seçkiləri ərəfəsində xalqa müraciəti zamanı "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikirləri, sözün əsl mənasında, reallıqda Azərbaycanın hərtərəfli inkişafı fonunda öz təsdiqini tapmaqdadır.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin solistlərinin ifasında Milli Liderin ən çox sevdiyi musiqi nümunələri ifa olunub.

**leytenant N.Ağayeva**

## DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ - DAXİLİ QOŞUNLARIN KOMANDANI PAKİSTANIN ÖLKƏMİZDƏKİ HƏRBİ ATTAŞESİ İLƏ GÖRÜŞÜB

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov mayın 1-də Daxili Qoşunların Baş İdarəsində Pakistan İslam Respublikasının Azərbaycan Respublikasındakı hərbi attaşesi polkovnik Nadem Yaqub Çodrini qəbul edib.***



Hərbi attaşeni səmimi salamlayan general-leytenant Ş.Məmmədov Pakistan İslam Respublikasının Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu diqqətə çatdıraraq, hər iki ölkə arasında qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərindən söz açıb. Ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın mövcudluğunu müsbət hal kimi qiymətləndirən Daxili Qoşunların Komandanı, Pakistan İslam Respublikasının Hərbi Attaşeliyi ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında son illərdə yaranmış qarşılıqlı əməkdaşlıq münasibətlərinin bundan sonra da müvəffəqiyyətlə davam edəcəyinə əminliyini bildirib.

İkitərəfli münasibətlərin ölkələrin gələcək inkişafına böyük təkan verəcəyini vurğulayan polkovnik N.Y.Çodri səmimi qəbula görə təşəkkürünü ifadə edib. Qonaq öz növbəsində, Azərbaycan Respublikasının Daxili Qoşunları ilə Pakistan İslam Respublikasının müvafiq qurumu arasında qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsi üçün lazımi dəstək verəcəyini vurğulayıb.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə qeyd olunub ki, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında hərbi sahədə daima inkişaf edən əlaqələr hər iki tərəf üçün faydalıdır.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

**Mətbuat xidməti**

2_Layout 1 14.05.2018 12:10 Page 1



## DAXİLİ QOŞUNLARIN KOMANDANI ƏSGƏR VALİDEYNLƏRİ İLƏ GÖRÜŞÜB

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun mayın 6-da 99713 saylı hərbi hissədə əsgər valideynləri ilə görüşü keçirilib.***



Görüşdən əvvəl Daxili Qoşunların Komandanı şəxsi heyətin kazarma-məişət şəraiti və təminatı ilə tanış olub, ərazidə aparılan abadlıq işləri ilə maraqlanıb.

Hərbi hissə komandiri polkovnik-leytenant Ramiq Salayev hissənin döyüş hazırlığının vəziyyəti, şəxsi heyətin mənəvi-psixoloji durumu barədə məruzə edib.

General-leytenant Ş.Məmmədov gündəlik xidməti-döyüş fəaliyyəti ilə əlaqədar məsul vəzifəli şəxslərə müvafiq tapşırıqlarını verdikdən sonra əsgər valideynləri ilə görüşərək, onların müraciətlərini dinləyib.

Görüşün təşkil olunmasında əsas məqsədin valideynlərin müraciət və təkliflərinin dinlənilməsi olduğunu vurğulayan cənab Komandan qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf ordu quruculuğu prosesinə də öz müsbət təsirini göstərməkdədir və bu dinamika Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında da hiss olunmaqdadır: “Daxili Qoşunların bütün hərbi hissələrində əsgərlərin yüksək səviyyədə xidmət aparması üçün hərtərəfli şərait yaradılıb. Hərbi qulluqçularımızın sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış kompleksləri və yeni hərbi şəhərciklər ən müasir zəruri avadanlıqlarla təchiz edilib. Daxili Qoşunların hər bir hərbi qulluqçusu dövlət qayğısını hiss edir və bu etimadı fədakar xidmətləri ilə doğrultmağa çalışır. Təbii ki, bütün bunlar ölkə başçısının şəxsi heyətə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir”.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı hərbi qulluqçuların xidməti-döyüş fəaliyyəti ilə əlaqədar bir sıra məqamları əsgər valideynlərinin diqqətinə çatdırıb.

Səmimi fikir mübadiləsi şəraitində keçən görüşdə əsgər valideynləri, öz növbəsində, övladları üçün yaradılmış hərtərəfli şəraitə görə Respublika Prezidentinə, həmçinin Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

Görüşdən sonra əsgər valideynlərinin arzu və istəklərinin yerinə yetirilməsi istiqamətində konkret göstərişlər verilib, icrası mümkün olan məsələlər isə yerindəcə həllini tapıb.

**Mətbuat xidməti**

## XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN HƏRBİ ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb.***





Mayın 12-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərin hərbi andiçmə mərasimi keçirilib. Tədbirdə Daxili Qoşunlar Komandanının 1-ci müavini – Qərargah rəisi general-mayor Tofiq Hüseynov, Veteranlar Şurasının üzvləri və əsgər valideynləri iştirak ediblər.

Mərasim Milli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Hərbi hissə komandiri polkovnik Əhliman İlmazov çıxış edərək əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sadiq olacaqlarına and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hər bir əsgərin Vətənə şərəflə xidmət edəcəyinə, Azərbaycan Respublikasının qanunlarına, hərbi anda və nizamnamələrin tələblərinə ciddi riayət edəcəyinə, eləcə də yüksək döyüş hazırlığına və möhkəm nizam-intizama malik olacaqlarına əminlik ifadə olunub.

General-mayor T.Hüseynov çıxış edərək hərbi andı qəbul edən əsgərləri səmimi qəlbdən təbrik edərək, qeyd edib ki, bu əlamətdar tarix hər bir əsgərin həyatında unudulmaz və yaddaqalan günlərdən olacaq. O, əsgərlərə xitabən diqqətə çatdırıb ki, hər bir hərbi qulluqçu Vətənə, xalqa, dövlət və dövlətçiliyimizə sonsuz sədaqətlə xidmət etməlidir: “Sizin çiyinlərinizdə həm vətəndaşlıq, həm də hərbçi şərəfi dayanır. Unutmayın ki, Vətən öz taleyini torpağını, millətini sevən, onun uğrunda canını fəda etməyə hazır olanlara etibar edir. Bu etibarı, bu inamı öz xidmətinizlə doğruldun. Yalnız Vətənə ləyaqətlə xidmət etməyə, həvalə olunmuş bütün vəzifələri uğurla yerinə yetirməyə və Daxili Qoşunların nüfuzunu qorumağa çalışın”.

Əsgərlər adından çıxış edən əsgər Tural Hacıyev bu əlamətdar günü qürur hissi ilə xatırlayacaqlarını deyərək, bildirib ki, hərbi and onların üzərinə çox çətin və şərəfli bir vəzifə qoyur: “Vətən öz taleyini məhz biz əsgərlərə etibar edir. Ona görə də dövlət və dövlətçiliyimizin gücləndirilməsi naminə sədaqətlə xidmət edəcək, bu etimadı fədakar xidmətimizlə doğrultmağa çalışacağıq”.

Çıxış edən digər qonaqlar da hərbi andiçmə münasibətilə əsgərləri təbrik edib, onlara xidmətdə müvəffəqiyyətlər arzulayıblar.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

## DAXİLİ QOŞUNLAR “FORMULA-1 AZƏRBAYCAN QRAN PRİ” YARIŞLARI ZAMANI QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARI YÜKSƏK SƏVİYYƏDƏ YERİNƏ YETİRİB











Aprelin 27-dən 29-dək ardıcıl olaraq üçüncü dəfə Bakıda keçirilən “Formula-1 Azərbaycan Qran Pri" yarışları zamanı təhlükəsizlik tədbirləri yüksək səviyyədə həyata keçirilib.

Paytaxtımızda ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasında polis əməkdaşları ilə birlikdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də qarşıya qoyulmuş tapşırıqların icrasına tam məsuliyyətlə yanaşmaqla üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.

Yarış zamanı marşrut üzrə perimetr boyu ərazilərin mühafizəsi təmin edilib, mühəndis-istehkam qrupları tərəfindən tamaşaçılar üçün quraşdırılmış tribunalar və digər obyektlər öncədən yoxlanılaraq müvafiq qaydada aidiyyəti üzrə mühafizəyə verilib.

Nəzarət-buraxılış məntəqələrində polis əməkdaşları ilə birlikdə buraxılış rejimi təmin olunub, hərəkət icazəsi olan mülki avtomobillərin yoxlanılması zamanı xidməti itlərdən də geniş istifadə edilib. Qeyd olunan istiqamətlər üzrə qarşıya qoyulmuş tapşırıqlar tam həcmdə yerinə yetirilib, xidmətin aparılmasında hər hansı nöqsana yol verilməyib.

Xidmətə cəlb olunan hərbi qulluqçularla əvvəlcədən aparılmış təlimatlandırma, o cümlədən onların mənəvi-psixoloji və fərdi keyfiyyətlərinə xüsusi diqqətin yetirilməsi nəticəsində vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi əməl olunub.

Yarış zamanı xidmətin keyfiyyətli təşkili üçün bütün profilaktik tədbirlər görülüb, şəxsi heyətin daşınması, onların qidalanması, hərbi qulluqçulara tibbi xidmətin göstərilməsi, asudə vaxtının səmərəli təşkili də xüsusi diqqət mərkəzində saxlanılıb.

Bir sözlə, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər zamanı ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında kifayət qədər təcrübəyə malik olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti bu dəfə də qarşıya qoyulmuş bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

**Mətbuat xidməti**

## “DÖYÜŞ TAPŞIRIĞINI MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRMƏK ƏSAS VƏZİFƏMİZDİR”

Regiondakı ictimai təhlükəsizliyin təmin edilməsində və ictimai qaydanın qorunub saxlanılmasında, silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsində 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin rolu əvəzolunmazdır. Dəstə komandiri vəzifələrini icra edən kapitan Şixamir Qaflanov döyüş hazırlığının müasir standartlara uyğunlaşdırılması məqsədilə şəxsi heyətin bilik və bacarıqlarının daima təkmilləşdirilməsinə ehtiyac olduğunu bildirdi. Bu baxımdan, hərbi qulluqçularla keçirilən nəzəri və praktiki məşğələlərin əhəmiyyətini vurğulayan kapitan Ş.Qaflanov ərazinin mövcud relyefini əsas gətirərək, daha çox praktiki təlimlərə üstünlük verildiyini dedi.



O, şəxsi heyətin atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi dağçılıq, habelə həmlə-desant hazırlığı məşğələlərinə də cəlb olunduğunu bildirdi. Dəstə komandiri xüsusi-taktiki hazırlıq məşğələsindən söz açaraq, təlimlərin məqsəd və əhəmiyyətindən danışdı. Alpinist qülləsində hərbi qulluqçular bina axtarışı üçün binaya xüsusi iplər vasitəsilə giriş fəndlərini öyrənirlər. Bundan başqa, təlimin mahiyyəti əməliyyat rayonuna helikopter vasitəsilə qısa bir müddətdə çatmaq və müxtəlif enmə üsullarından istifadə edərək, şəxsi heyəti təyin olunmuş əraziyə endirmək, eləcə də verilimiş döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməkdir. Təlim və məşğələlərin mütəmadi olaraq keçirilməsinin məqsədi hərbi qulluqçularda peşə vərdişlərinin, o cümlədən döyüş qabiliyyətinin daha da artırılmasıdır. Kapitan Ş.Qaflanov əlavə etdi ki, döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirmək onların əsas vəzifəsidir.

Dəstə komandiri verilmiş tapşırıqların öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan yarımqrup komandiri baş çavuş Rizvan Məhərovun, qumbaraatan qrupunun komandiri baş çavuş Kərim Kərimovun, atıcı-sanitar çavuş Şakir Fətəliyevin və snayper baş əsgər Muxtar Xəlilovun adlarını sadaladı.

**kapitan T.Əlizadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### “Uber” və Pentaqon səssiz təyyarə hazırlayacaq



“Uber” və ABŞ Müdafiə Nazirliyinin Tədqiqat, İnkişaf və Mühəndislik bölməsi yeni rotor sisteminin hazırlanması üzrə əməkdaşlıq edəcək.

Sözügedən tərəflər bu sistemin prototipinin hazırlanması və sınaqdan keçirilməsi üçün 1 milyon dollar xərcləməyi planlaşdırır.

Yeni sistem ənənəvi analoqlarından əhəmiyyətli dərəcədə səssiz olacaq. Onun həmçinin, şaquli qalxıb-enmə imkanına malik olması da gözlənilir.

ABŞ ordusunun Tədqiqat Laboratoriyasının nümayəndəsi olan Caret Riddik bildirib ki, ordu eyni zamanda şaquli qalxıb-enmə imkanına malik və indikilərdən olduqca az səs çıxaran dronların hazırlanması üzrə də işlər aparır.

### Bu PUA-lar gələcəkdə şaquli qalxma-enmə imkanına malik olacaq

“AeroVironment” gələcək PUA-larına şaquli qalxma-enmə imkanı təmin etmək məqsədilə “FlightWave” şirkəti ilə əməkdaşlıq edəcək. Bu barədə bəyanat yayan şirkətlər artıq əməkdaşlıq üzrə müqavilə bağlandığını da elan edib.

“AeroVironment”in hazırkı dronlarının əksəriyyəti (“Puma AE və “Raven AE”) sabit qanadlı dronlardır və onlar əsasən əl ilə, yaxud katapult olaraq havaya qaldırılır və nəzarət üçün istifadə olunur. Şirkətin sadəcə sonuncu istehsalına başladığı “Snipe”



kiçik kvadrakopter və “Quantix” dronları şaquli qalxma-enmə imkanına sahibdir.

Yeni başladılan əməkdaşlıq nəticəsində kompaniyanın istehsal etdiyi bütün dronların bu qabiliyyətlə təmin edilməsi planlaşdırılır.

**“ORDU.AZ” hərbi xəbər saytı**

3_Layout 1 14.05.2018 12:11 Page 1



# GÖRÜLƏN İŞLƏR BİR MƏQSƏDƏ - QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNİN YÜKSƏK MƏNƏVİ-PSİXOLOJİ HAZIRLIĞINA YÖNƏLDİLİR

***Şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar, eyni zamanda digər hüquqazidd qəsdlərdən qoruyan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Daxili Qoşunların qarşısında qoyulmuş hər bir tapşırığın müvəffəqiyyətlə icra olunması bunu deməyə əsas verir.***

Hərbi qulluqçuların döyüş hazırlığının daima yüksək səviyyədə saxlanılması üçün vacib olan şərtlərdən biri onların mənəvi-psixoloji durumudur. Belə ki, şəxsi heyətin xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində, qanunçuluğun, hərbi intizamın yüksək səviyyədə saxlanılmasında, eləcə də hərbi kollektivin möhkəmləndirilməsində mənəvi-psixoloji hazırlıq ən əhəmiyyətli məsələlərdəndir. Daxili Qoşunlar Komandanlığının da diqqət mərkəzində saxladığı bu istiqamətdə aparılan tərbiyə işi 16077 saylı hərbi hissədə də tam və keyfiyyətlə həyata keçirilir.

Təsdiq olunmuş plana əsasən, həftədə iki dəfə bir saat olmaqla şəxsi heyətlə tərbiyə



işi saatı keçirilir. Çərşənbə axşamı bölmə komandirləri, cümə axşamı isə idarə heyətinin zabitləri tərəfindən keçirilən tərbiyə saatlarında hərbi qulluqçular fəal iştirak edirlər. Tərbiyə işinin əsas vəzifələri hərbi qulluqçularda Vətənə, hərbi anda sədaqət hissi, hərbi xidmətin çətinliklərinə dözüm bacarığı formalaşdırmaq, onları Azərbaycan Respublikasının Konstitusiyasına, digər qanunlara, hərbi nizamnamələrin tələblərinə dönmədən riayət etmək ruhunda tərbiyələndirməkdir. Hərbi-peşəkar biliklərin, hərbi ustalığın təkmilləşdirilməsi, düzgünlük, intizamlılıq, sayıqlıq, yoldaşlıq, o cümlədən xidmət yoldaşlarının şərəf və ləyaqətinə hörmət etmək kimi keyfiyyətlərin formalaşdırılması da tərbiyə işinin məqsədlərindəndir. Həmçinin, hərbi qulluqçuların şəxsi keyfiyyətlərinin və mədəni səviyyələrinin yüksəldilməsi tərbiyə işinə daxildir. Tərbiyə işi xidməti-döyüş fəaliyyətinin mənəvi-psixoloji təminatına yönəldilərək, hərbi qulluqçuların dövlətçilik, hərbi-vətənpərvərlik, hərbi-peşəkarlıq, hüquqi, mənəvi, fiziki və estetik tərbiyəsi istiqamətlərində aparılır. Bu vəzifələrin yerinə yetirilməsi hərbi intizamın möhkəmləndirilməsinə, sosial-hüquqi, sosial-psixoloji, mədəni-asudə işləri kimi təşkilati tədbirlərə uyğunlaşdırılır.

16077 saylı hərbi hissənin Artilleriya divizionunda Minaatan batareyası komandirinin tərbiyə işləri üzrə müavini leytenant Mübariz Həşimov şəxsi heyətin kifayət qədər hərbi biliklərə, eyni zamanda peşəkar bacarığa malik olduqlarını bildirdi. O, şəxsi heyətin tərbiyə işi saatlarında fəal iştirak etdiyini, hərbi bilik və bacarıqlarının, peşə vərdişlərinin daha da artırılması istiqamətində səylə çalışdıqlarını nəzərə çatdırdı. Məşğələlər əsasən Minaatan batareyanın xidməti-döyüş tapşırıqlarına uyğunlaşdırılır. Bununla yanaşı, məşğələlərdə "Hərbi intizam ordu quruculuğunda əsas amildir", "Hərbi kollektivdə dostluq və yoldaşlıq münasibətlərinin yaradılmasında hərbi qulluqçuların rolu", "Azərbaycan hərb tarixində artilleriyaçı generallarımızın yeri. General-leytenant Əliağa Şıxlinskinin həyat və fəaliyyəti", "Hərbi etikanın əsasları, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlər və davranış qaydaları", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin beynəlxalq hərbi təşkilatlarla əlaqələri", "Milli Liderimiz Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin ordu quruculuğu və inkişafında əvəzsiz rolu" başlıqlı mövzular da tədris olunur. Bütün bu görülən işlər bir məqsədə - qoşunların şəxsi heyətinin yüksək mənəvi-psixoloji hazırlığına yönəldilir. Bu gün artıq sözügedən keyfiyyətlərin hər bir hərbi qulluqçuda formalaşması keçirilən tərbiyə işi saatlarının nəticəsidir.

**kapitan T.Əlizadə**

# DÖYÜŞ YOLUMUZ VƏTƏNƏ BAĞLILIQ, HƏRBİ ANDA SƏDAQƏT NÜMUNƏSİDİR!

***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şərəfli döyüş yolu mövzusunda həm "Əsgər" qəzeti redaksiyası, həm Daxili Qoşunların Muzeyi, həm də Daxili Qoşunların Arxivi, habelə Daxili Qoşunların Veteranlar Şurası tərəfindən bu günədək müəyyən tədqiqatlar aparılıb və hazırda da göstərilən proses davam etdirilir. Daxili Qoşunların döyüş salnaməsinin öyrənilməsi tarixi yaddaş, xidməti fəaliyyət üçün təcrübə və hərbi-vətənpərvərlik tərbiyəsi baxımından böyük əhəmiyyətə malikdir.***

Əlbəttə, bu vacib işdə sıralarımızda uzun illər xidmət edən və hazırda ehtiyatda olan hərbi qulluqçular da öz töhfələrini verməlidirlər. "Əsgər" qəzetində döyüş yolu mövzusunda dərc edilən materiallara şəxsi heyətin, hərbi qulluqçularımızın ailə üzvlərinin və veteranların nəzərəçarpan maraq göstərməsi də diqqətəlayiq cəhətdir. Bu onu göstərir ki, qeyd olunan mövzuya heç kəs laqeyd qalmır.

Daxili Qoşunların respublikamızın suverenliyinin qorunması və ərazi bütövlüyünün bərpası uğrunda döyüş salnaməsinin müəyyən məqamlarına bu yazıda nəzər salmaqla, o dövrün mürəkkəb gerçəkliyinə obyektiv baxış nümayiş etdirmək qarşıya məqsəd qoyulur.

1991-1994-cü illərdə Müstəqil Dövlətlər Birliyi məkanı ölkələrinin Daxili İşlər



Nazirliyi sisteminin tərkib hissəsi olan Daxili Qoşunları arasında məhz Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının üzləşdiyi döyüş sınaqları öz ağırlığına və doğurduğu nəticələrə görə heç bir tərəflə müqayisəolunmazdır. Həqiqətən də o dövrdə Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinə elan olunmamış müharibə vəziyyətinin reallıqları çox ciddi dərəcədə təsir göstərib.

Daxili Qoşunların şəxsi heyəti o illərdə ön cəbhənin müxtəlif istiqamətləri - həm Ermənistanla dövlət sərhədi keçən, həm də Dağlıq Qarabağ və ətraf bölgələri əhatə edən düşmənlə təmas xəttindəki ərazilərdə döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. Həmin vaxt Daxili Qoşunların məhdud qüvvə və vasitələrlə ön cəbhənin bir istiqamətində deyil, demək olar ki, bütün istiqamətlərində döyüş əməliyyatlarında iştirakı onların çevik idarə olunmasını mürəkkəbləşdirən və öz imkanlarının cəmləşdirilməsində müəyyən çətinliklər yaradan amil olub. Müharibənin canlı şahidi olan veteranların sözlərinə görə, söhbət açılan dövr üçün Daxili Qoşunların vuruşan hissə və bölmələri bir sıra hallarda qeyri-bərabər qüvvələr nisbətinə, köməksiz vəziyyətdə qaldıqlarına, qüvvə və vasitələrin tükənməsinə, digər hərbi birləşmələrlə əlaqələrin itirilməsinə, yaxud uzlaşdırılmış fəaliyyətin pozulmasına baxmayaraq, öz qətiyyəti, döyüş ruhu, qazandıqları döyüş təcrübəsi və vərdişləri hesabına torpaqlarımızın müdafiəsində mətin dayanıblar.

Qarabağ müharibəsində Daxili Qoşunların zabit və əsgərlərinin fədakarlığı xüsusi ehtirama layiqdir. Döyüşdə öz əsgərlərindən heç vaxt geridə qalmayan şəhid alay komandiri kapitan Ənvər Arazov, cəsurluğu ilə tabeliyindəki şəxsi heyəti zəfərə ruhlandıran şəhid zabit baş leytenant Ruber Səfərəliyev, odlu səngərlərdə mərdliklə vuruşan şəhid zabit leytenant Ramiz Məcidov, döyüş tapşırığının yerinə yetirilməsi zamanı son nəfəsinədək hərbi anda sadiq qalan gizir Nemət Maşıyev, ağır yaralansa da, son damla qanınadək vuruşaraq düşmənin onlarla hərbçisini məhv edən igid döyüşçü Elpərəst Hüseynov, düşmən tankı altında torpağa gömülən çavuş Şahin Abbasovun yenilməz manqasının və yüzlərlə digər hərbi qulluqçumuzun şücaət nümunələri heç vaxt unudulmayacaq.

Müharibə dövründə Daxili Qoşunların hərbi qulluqçuları möhkəm hərbi yoldaşlıq, şərəf və ləyaqət örnəyi nümayiş etdiriblər. Yaralı əsgərini xilas edərkən, habelə komandirini qoruyarkən güllə-mərmi hədəfi olan zabit və əsgərlərimizin bu dəyanəti haqlı iftixar hissi doğurur. Əslində, belə nümunələr bədii əsər və film mövzusu ola bilər. Təəssüf ki, ədib və kinorejissorlarımızın bugünkü yaradıcılığında qeyd olunan mövzu əsas yeri tutmur.

Hərbi qulluqçularımız döyüş tapşırıqlarını yerinə yetirərkən xalqımızın mənəviyyatından irəli gələn insaniyyət keyfiyyətlərinin aşınmasına yol verməyiblər. Belə ki, düşmən tərəfin mülki şəxslərinə, xüsusən də qocalara, qadınlara, uşaqlara, təslim olan və əsir düşən, yaralı vəziyyətdə döyüş meydanında qalan hərbçilərinə qarşı qəddar və zorakı rəftar etməyiblər, meyitlər təhqir olunmayıb. Halbuki, ermənilər döyüşlərin gedişində öz vəhşiliklərindən qalmayıblar.

Maraqlı faktlardan biri olaraq nəzərə çatdırım ki, Daxili Qoşunlar Komandanının "Ədalətli döyüş haqqında" 9 yanvar 1993-cü il tarixli müvafiq döyüş əmri ilə şəxsi heyət qarşısında döyüş əməliyyatları aparılarkən insanlıq haqqına uyğun hərəkət edilməsi tələbi qoyulub. Bu fakt beynəlxalq humanitar hüquqa hörmət göstərilməsini təsdiqləyir.

Döyüş əməliyyatları getdiyi dövrdə Daxili Qoşunların bir sıra hərbi hissələrinin çevik şəkildə dislokasiya yerdəyişməsi, öz tərkibindən hərbi dəstə göndərməsi və birləşmiş hərbi dəstələrin yaradılması həyata keçirilib, habelə ön cəbhədə yeni hərbi hissələr formalaşdırılıb. Bu yerdəyişmələr zamanı mütəşəkkilliyə riayət edilib, hərbi əmlakın itkisinə yol verilməyib, şəxsi heyətin döyüş hazırlığı qorunub saxlanılıb. Həmçinin, ön cəbhə zonasında ayrı-ayrı mülki obyektlərin qısa vaxtda hərbi şəhərciyə uyğunlaşdırılması tədbirləri təmin edilib. Xüsusi qeyd etmək lazımdır ki, həmin dövrdə Daxili Qoşunların ön cəbhədəki hərbi hissələri ilə fasiləsiz rabitə əlaqəsinin qurulması və işlək vəziyyətdə saxlanması heç də asan məsələ deyildi. Bütün çətinliklərə baxmayaraq, bu vacib vəzifənin yerinə yetirilməsinə nail olunub. Bir epizodu xatırlatmaq yerinə düşər ki, 1993-cü ilin sentyabr-oktyabr aylarında Zəngilan rayonu mühasirədə olarkən oradakı mülki və hərbi qurumlarla rabitə əlaqəsinin saxlanmasında Daxili Qoşunların avtomatlaşdırılmış rabitə sisteminin imkanlarından da istifadə olunub.

Daxili Qoşunlar tərəfindən döyüşlər getdiyi dövrdə foto-video çəkiliş qruplarının, hərbi müxbirlərin ön cəbhəyə göndərilməsinin və fəaliyyətinin təşkili, ziyalılar və incəsənət xadimlərindən ibarət nümayəndə heyətlərinin döyüşçülərlə görüşlərinin keçirilməsi mühüm addımlar olub. Bu işlər həm döyüş salnaməsinin foto və video, yazılı materiallarda əks olunmasına, həm də şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə yönəldilib.

Bütün bunlarla yanaşı, qeyd etməyi məqsədəuyğun hesab edirəm ki, müharibə dövrü ilə bağlı aparılan tədqiqatlar və araşdırmalar özünün çoxşaxəliliyi, mürəkkəb mahiyyəti, geniş məlumat və fakt bazası, çoxlu sayda hərbi qulluqçunun taleyini əhatə etməsi baxımından xüsusi diqqət tələb edən məsələdir. Biz döyüşlərdə şəhid olmuş hərbi qulluqçularımızın məzarları, abidə və büstləri, xatirə lövhələri, adını daşıyan qurumlar, onların ailələri barədə dolğun məlumatlar toplamalıyıq. Bundan əlavə, itkin və əsir düşmüş hərbi qulluqçularımızın taleyi ilə bağlı araşdırmalar da davamlı olaraq diqqət mərkəzində saxlanmalıdır.

Daxili Qoşunların Komandanlığı tərəfindən son vaxtlar bu məsələlərə xüsusi diqqət yetirilməsi, hərbi hissələrimizin döyüş yolunun, hərbi qulluqçularımızın cəsurluq nümunələrinin təbliğ olunmasına yönəlik ardıcıl tədbirlərin görülməsi, qoşunların veteranları ilə əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi müsbət bir gerçəklikdir.

**Yalçın Abbasov**

# VƏTƏNPƏRVƏRLİK ONUN HƏYAT AMALI İDİ...

***Qarabağ savaşının cəsur döyüşçülərindən biri, ehtiyatda olan baş gizir Yusif Nəciyev 22 aprel 2018-ci il tarixdə ağır xəstəlikdən sonra vəfat edib.***

Yusif Nəciyev 1971-ci il yanvarın 1-də Yardımlı rayonunun Avur kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra, 1989-1991-ci illərdə SSRİ Silahlı Qüvvələrinin sıralarında xidmət edib.

Y.Nəciyev 1992-ci ilin avqust ayında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarına hərbi xidmətə çağırılıb. Daxili Qoşunlar 1992-ci ilin mart ayından etibarən erməni işğalçılarına qarşı döyüşlərə başlamışdı. Lakin həmin ilin iyun ayından etibarən daha da təşkilatlanmışdı, intensiv olaraq yeni hərbi hissələr və bölmələr yaradılırdı, onlar demək olar ki, bütün cəbhə boyu əməliyyatlarda iştirak edirdilər. Belə bölmələrdən biri də Zəngilan rayonunun Qazançı kəndində yerləşirdi. Y.Nəciyev də həmin bölmənin tərkibində, sonralar bütövlükdə qoşunların tarixinə həkk olunacaq qəhrəmanlıqları ilə zəngin olan döyüş yoluna başladı. Yusifin Vətən sevgisi, düşmənə nifrəti, döyüşlərdə cəsurluğu, döyüşçü kimi peşəkarlığı həmin dövrdə artıq ayrıca hissəyə çevrilən Zəngilan taborunun çoxsaylı qəhrəman döyüşçülərinin içərisində onun lider kimi formalaşmasının əsas səbəbi idi. Yusif və döyüşçü dostları, sözün əsl mənasında, ermənilər üçün bir ölüm maşınına çevrilmişdilər. Zabit kadrların kəskin çatışmazlığı dövründə çox keçmədi ki, Sovet ordusunda xidmət təcrübəsi olan, döyüşlərdə yüksək qabiliyyət və bacarıq nümayiş etdirən Y.Nəciyev taqım komandiri vəzifəsinə təyin edildi və ona "gizir" hərbi rütbəsi verildi.

Burada bir faktı qeyd etməyi özümə borc bilirəm. Məlumdur ki, həmin dövrdə ordu quruculuğu istiqamətindəki işlərə kölgə salan bəzi xoşagəlməz hallar var idi. Bunlardan biri də əsgərlərin hissələri özbaşına atıb getmələri, fərarilik halları idi. Məhz Zəngilan taborunun tərkibində həmin dövrdə bir nəfər də olsun fərarilik halı yox idi. Bu nizam-intizama tabor komandiri Əkbər Hüsüyevin komandirlik bacarığı ilə bərabər, Yusif kimi oğulların nüfuzu ilə nail olunmuşdu, heç kim döyüşçü dostlarını qoyub getməyi ağlına belə gətirmirdi.

Tabor Zəngilan əhalisi tərəfindən də çox sevilir və güvənilirdi. 1993-cü ilin mart ayında həmin taborun dislokasiya yerinin dəyişilməsi barədə qərar qəbul edilmişdi. Həmin qərarın icrası üçün mən Zəngilana ezam edilmişdim, hətta taborun postlarını belə Milli Ordunun müvafiq taboruna təhvil verib, sənədləşmə işlərini aparırdıq. Bu zaman məlumat gəldi ki, Zəngilanın mərkəzində əhali tərəfindən bu proses birmənalı qarşılanmayıb, onlar heç bir halda taborun Zəngilandan çıxarılmasını istəmir və buna görə də İcra Hakimiyyətinin önündə toplaşırlar. Zəngilanlıların təkidi ilə bu məsələ respublika prezidentinə çatdırılmışdı və onun göstərişi ilə taborun Zəngilandan çıxarılması məsələsi aradan qalxdı.

Yusifin çoxsaylı qəhrəmanlıqlarından bəzilərini xatırlamaq yerinə düşər. 1993-cü ilin aprel ayında erməni kəşfiyyat qrupu taborun ön müşahidə postuna gizlin daxil olmağı bacarmış, müəyyən qədər silah və sursat ələ keçirərək, ərazini tərk etmişdi. Düşmənin cavabsız qalması onu daha da şirnikləndirə, yeni təxribatlara səbəb ola bilərdi. Tabor komandiri Əkbər Hüsüyev erməni-



lərin qarşıdakı postunun ələ keçirilməsi barədə qərar qəbul edir və öndə Yusifin rəhbərlik etdiyi taqım olmaqla şəxsi heyət qəfil hücuma keçir. Bu əməliyyatda Yusifin göstərdiyi şücaət doğrudan da bir qəhrəmanlıq səhifəsidir. Yusifin taqımı nəinki qarşı postu ələ keçirir, düşmənləri yerindəcə məhv edir, qazanılmış nailiyyəti inkişaf etdirərək, taqım daha da dərinliklərə soxulur və düşmən taborunun ön müşahidə postunu dağıdır. Həmin əməliyyat zamanı əldə edilmiş düşmən xəritəsində bütün sərhədboyu erməni mövqeləri öz əksini tapmışdı. Eyni zamanda çoxsaylı silah və sursat əldə edilmişdi, həmin döyüşdə Yusifin gətirdiyi düşmən DŞK-sı indi də qoşunların arsenalında saxlanılır.

Y.Nəciyev Zəngilan döyüşlərində axıradək mətinliklə iştirak edib, üzərinə düşən döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirib. Onun xidmət etdiyi hərbi hissənin şəxsi heyəti rayon işğal olunarkən ərazini sonuncu tərk edən hərbi qüvvə olub. Hərbi qulluqçularımız rayon əhalisinin müdafiəsi və ərazidən çıxarılması üçün bütün zəruri tədbirlərin görülməsini təmin ediblər.

Zəngilan taboru 1993-cü ilin noyabr ayında Daxili Qoşunların Hacıqabulda yerləşən hərbi hissəsinin tərkibinə verildi. 1994-cü ilin yanvarında bu hərbi hissə uğurlu Horadiz əməliyyatında iştirak edirdi. Yusif burada artıq bölük komandiri vəzifəsində xidmət edirdi. Əsas hücum istiqaməti isə Lələtəpə yüksəkliyi idi. Yusifin komandir olduğu bölük isə briqadanın önündə gedirdi. Həmin döyüşlərdə bölüyün şəxsi heyəti tərəfindən ermənilərə ağır zərbə endirilmiş, düşmənin bir neçə zirehli texnikası və xeyli canlı qüvvəsi məhv edilmişdi. Əhmədbəyli kəndindən başlayaraq, Horadiz qəsəbəsi də daxil olmaqla, Cocuq Mərcanlı kəndinədək torpaqlarımızın azad edilməsində bölüyün göstərdiyi xüsusi şücaət və qəhrəmanlığa görə Y.Nəciyev Daxili Qoşunlar Komandanlığı tərəfindən dəfələrlə mükafatlara layiq görülmüşdü.

1994-cü ilin fevral ayında Yusifin komandir olduğu bölük Cocuq Mərcanlı kəndində müdafiə mövqelərində dayanmışdı. Döyüşçülərimiz üçün Yusifin orada olması artıq bir əminlik, özünəinam, qorxmazlıq rəmzi demək idi. Həmin vaxt mən briqada komandirinin müavini vəzifəsində idim və cəbhə bölgəsindəki bölmələrin rəhbərliyi mənə həvalə edilmişdi. Əhmədbəylidə yerləşən qərargahdan mənə zəng edərək gündəlik yekun müşavirəsinə gələrkən bölük komandirinin də müşavirəyə qatılmasını təmin etməyimi tapşırdılar. Məlum oldu ki, Lələtəpədə yerləşən erməni mövqeyinin kəşfiyyat-diversiya qrupu ilə ələ keçirilməsi müzakirə olunur. Bu tapşırığın Yusifin komandir olduğu bölüyə həvalə edilməsi nəzərdə tutulub. Yusif tapşırığı dinlədikdən sonra həmin əməliyyata dair öz mülahizələrini bildirərək, səlis surətdə əsaslandırmağa başladı və mövqeyini şərh etdi. Artıq o, hər bir döyüşçüsünü övladı qədər sevən, yetkin, ağıllı və güclü bir komandir kimi formalaşdığını sübut etməyi bacarırdı.

Atəşkəsdən sonrakı dövrdə də Yusif xidməti vəzifəsini şərəflə yerinə yetirib, Azərbaycan dövlətçiliyinin qorunması yolunda, xüsusilə də separatçılığa və cinayətkarlığa qarşı mübarizədə əzmkarlıq və şəxsi nümunə göstərib. Yusif öz şərəfli xidmətini xüsusi təyinatlı dəstənin tərkibində başa vurub, "baş gizir" hərbi rütbəsində Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb. O, doğulduğu Yardımlı rayonunda mülki həyata qayıtmışdı.

Yusif hərbi xidmətdə olduğu kimi, mülki həyatda da bir vətənpərvərlik nümunəsi idi. O, hər an silaha sarılmağa hazır idi, bu onun həyat tərzinə, amalına çevrilmişdi. Yusif hətta yaşadığı evini Azərbaycan Bayrağının rəngləri ilə bəzəmişdi. Veteran olaraq ləyaqətli ictimai mövqeyi ilə cəmiyyətdə gənclərə örnək olub. O, bir qəhrəmanlıq, mərdlik, sözübütövlük nümunəsi idi. Təəssüf ki, amansız xəstəlik Yusifi aramızdan tez apardı, nə yaxşı ki, sağ olarkən onunla görüşə bildim. Onun gözlərində həyatını itirmək qorxusu yox idi, bir təəssüf oxunurdu, bu da Vətən torpaqlarının hələ də mənfur düşmənin işğalında olması idi, elə mənim və bütün döyüşçü dostlarımızın da ən böyük kədəri Yusifin Vətən nisgili ilə aramızdan getməsi oldu. Vaxtilə Yusifin komandiri olmuş Əkbər Hüsüyev, onun döyüşçü dostları Sərvər Cəfərov, Seymur Qurbanov və başqaları Yusifin qəhrəmanlıqları və insani keyfiyyətləri haqqında yorulmadan danışırlar. Amma qəhrəmanlar ölmürlər, Yusif əlinə silah alan ilk gündən ölümə qalib gəlmişdi, onun ölümü ölməzliyinin, əbədiliyinin başlanğıcıdır! Yusifin xatirəsi onun döyüşçü dostlarının, onu tanıyanların qəlbində elə özünün yandırdığı mərdlik məşəlinin işığı ilə daim işıqlanacaq!

**Səfxan Bayramov,**
**Daxili Qoşunların veteranı**

4_Layout 1 14.05.2018 12:12 Page 1



# BƏDİİ İSTEDADI VƏ İDMAN USTALIĞI İLƏ FƏRQLƏNƏN ZABİT



***Daxili Qoşunların 25033 saylı hərbi hissəsində Xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsi komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində xidmət edən baş leytenant Hacı Əsgərov müsbət cəhətdən fərqlənən hərbi qulluqçularımızdan biridir.***

O, 11 iyul 1983-cü ildə Sumqayıt şəhərində anadan olub. Orta məktəbdə təhsil aldığı dövrdən idmanın əlbəyaxa döyüş növünə maraq göstərib, davamlı olaraq məşqlərə qatılıb, respublika, şəhər və rayon birinciliyində uğurlu nəticələr əldə edərək fərman və medallarla mükafatlandırılıb. İdman ustasıdır.

2001-2003-cü illərdə Hacı ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətdən manqa komandiri vəzifəsindən, müsbət xasiyyətnamə ilə tərxis olunub. Sonra idmançı kimi fəaliyyətini uğurla davam etdirib. 2010-cu ilin may ayında Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin tərkibində hərbi xidmətə başlayıb. 2012-2014-cü illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində təhsil alıb. 2014-cü ildə ona "leytenant" hərbi rütbəsi verilib. Həmin ildən etibarən 25033 saylı hərbi hissədə xidmət edir.

O, funksional vəzifələrini vicdanla yerinə yetirir. Daim öz döyüş hazırlığını artırmağa çalışır. Hacı qoşunlarda keçirilən yarışlarda da müvəffəqiyyət qazanıb. Tabeliyindəki şəxsi heyətin təlim-tərbiyəsinə ciddi yanaşır, onları həm də öz bədii yaradıcılığı ilə ruhlandırır. Belə ki, baş leytenant H.Əsgərov vətənpərvərlik mövzusunda maraqlı şeirlərin müəllifidir. Onun şeirlərində Vətənin müqəddəsliyi, azərbaycançılıq məfhumu, hərbi hünər və fədakarlıq tərənnüm olunur. Baş leytenant H.Əsgərov "Əsgər" qəzetində istedadlı hərbi qulluqçularımızın dərc olunan şeirlərini də maraqla oxuyur. O, tərbiyəçi zabit kimi hesab edir ki, bədii söz şəxsi heyətin mənəvi-psixoloji hazırlığında mühüm rol oynayır. Təsirli və dəyərli bədii söz ruh yüksəkliyi aşılayır. Onun qələmə aldığı şeirlərdən bəzi nümunələri "Əsgər"-in oxucularına təqdim edirik.

### VƏTƏN SƏNƏ CANIM FƏDA

Vətən sənə canım fəda,
Ümidləri vermə bada,
Uğur gətir təmiz ada,
Vətənim!

*****

Can Vətən oğlu, igid oğlu,
qəhrəmanım mənim,
Vətənə bağlıdır ürəyim, şöhrətim,
şanım mənim.
Yaşasın Azərbaycanımız, gözəl
yurdumuz bizim,
Günü-gündən qüvvətlənir igid
ordumuz bizim.

*****

Vətən sənə canım fəda,
Ümidləri vermə bada,
Uğur gətir təmiz ada,
Vətənim!

*****

Azərbaycan, Azərbaycan, səninlə
döyünür ürəyimiz,
Azərbaycan, Azərbaycan,
Qarabağdır diləyimiz.
Varlığınla fəxr edirəm, ana
yurdum var olsun!
Yaşasın Azərbaycanımız, Tanrı
bizə yar olsun!

*****

Vətən sənə canım fəda,
Ümidləri vermə bada,
Uğur gətir təmiz ada,
Vətənim!

*****

Öncə Vətən yolunda biz canımızı
qurban verərik,
Vətənin hər qarışında düşməni
viran edərik.
Yaşasın Azərbaycanımız, gözəl
yurdumuz bizim,
Günü-gündən qüvvətlənir igid
ordumuz bizim.

*****

Vətən sənə canım fəda,
Ümidləri vermə bada,
Uğur gətir təmiz ada,
Vətənim!

### QARABAĞA KƏM BAXMA

Qarabağa kəm baxma, donar
gözlərin,
Kor olar gözlər, baxa bilməzsən.
Yerlərə yağış olub yağsan da,
İldırım kimi çaxa bilməzsən.

*****

Uşaq ikən çıxanda dağlara mən,
Ətəyində görünürdü meşələr.
Baxırdım ətrafa çox maraqla mən,
Gözəlliyə bürünürdü gecələr.

*****

İtmiş xəyallarımın arzusundayam,
Arzulayıb bitirə bilmirəm səni.
Hər səhəri, hər gecəni düşünürəm,
Fikrimdəsən, itirə bilmirəm səni.

*****

İlahi, uğur gətir sən elimizə,
Qoy hər zaman
çiçəklənsin ölkəmiz.
Bu xoşbəxtlik nur çiləsin elimizə,
İgidlərlə ürəklənsin ölkəmiz.

**25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# NÜMUNƏVİ HƏRBİ QULLUQÇULARIMIZ



**Gizir Dəyanət Allahyarov** 1984-cü il avqust ayının 10-da Ağdam rayonu Qızıllı-Kəngərli kəndində anadan olub. 2002-2006-ci illərdə Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alıb. 2006-2007-ci illərdə müddətli həqiqi hərbi xidmət keçib. 2008-ci ildən müddətdən artıq xidmət edən həqiqi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 16077 saylı hərbi hissəsinin Xüsusi təyinatlı dəstəsində yarımqrup komandiridir. O, xidməti müddətində Türkiyə Respublikası Jandarm Baş Komandanlığının gizir komando təməl və ixtisas kurslarında iştirak edib. Kursları müvəffəqiyyətlə başa vuran gizir D.Allahyarov hərbi bilik və bacarıqlarının, peşəkarlığının artırılması istiqamətində daima öz üzərində çalışır. Bununla yanaşı, tabeliyində olanların təliminə, tərbiyəsinə, sıra hazırlığına, hərbi intizamına, eyni zamanda mənəvi vəziyyətinə və zahiri görkəminin səliqəsinə xüsusi diqqət yetirir. Yarımqrupun döyüş hazırlığının daima yüksək səviyyədə olması, fiziki və atəş hazırlığı göstəricilərinin qoyulan normativlərə uyğun olması, habelə silah və döyüş sursatlarının saz vəziyyətdə qorunub saxlanılması da onun üzərinə düşən vəzifələrdəndir. Gündəlik xidməti-döyüş tapşırıqlarını uğurla icra edən gizir D.Allahyarov hərbi hissə komandanlığı tərəfindən dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.

16077 saylı hərbi hissədə nümunəvi xidməti və hərbi intizamı ilə fərqlənən digər bir hərbi qulluqçu **əsgər Tamerlan Məmmədovdur.** O, Artilleriya divizionunun minaatan batareyasında tuşlayıcıdır.

Əsgər T.Məmmədov 1997-ci il sentyabrın 23-də Sumqayıt şəhərində anadan olub. Orta təhsilini başa vurduqdan sonra



2013-2017-ci illərdə Şəki Pedaqoji Kollecində musiqi müəllimi ixtisasına yiyələnib. Şəki Dövlət Dram Teatrında iki il ssenarist-aktyor təlimi keçib. 2017-ci ilin iyul ayından qoşunların sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. Xidməti müddətində funksional vəzifələrinin öhdəsindən layiqincə gəlməyi bacaran Tamerlan hərbi hissənin özfəaliyyət kollektivinin də fəal üzvüdür. O, özfəaliyyət kollektivində kamança ifaçısıdır. Əsgər T.Məmmədov fərdi ustalığı sayəsində kamançada ifa etdiyi musiqilərlə hərbi qulluqçuların könlünü oxşamağı bacarır.

**kapitan T.Əlizadə**

# TARİXİ QƏLƏBƏNİN QAZANILMASINDA AZƏRBAYCAN XALQININ ROLU

***II Dünya Müharibəsində Azərbaycandan cəbhəyə səfərbər olunan 700 min adamdan yarıdan çoxu həlak olmuş və itkin düşmüş, 123 nəfər isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.***

Sovet Azərbaycanı SSRİ-nin tərkibində olduğuna görə hələ 1939-cu ilin payızında müharibəyə cəlb olunmuşdu. 1941-ci ilin iyunundan isə alman faşizminə qarşı müharibədə iştirak etmişdir.

Azərbaycan "Böyük Vətən Müharibəsi" kimi tarixə düşmüş 1941-1945-ci illər müharibəsinə 650 mindən çox oğlan və qız göndərmişdi. Onlardan 40 mini könüllü olaraq cəbhəyə yollanmışdı. Azərbaycanlılar əlavə beş milli - 77-ci, 223-cü, 271-ci, 402-ci, 416-cı diviziyaları formalaşdırmışdılar. 40 nəfər azərbaycanlı Brest qalasının müdafiəsində iştirak etmiş və son nəfəsinədək qala uğrunda döyüşmüşdü. 1941-ci ilin payızında Leninqrad səmasını qoruyarkən Hüseynbala Əliyev misilsiz qəhrəmanlıq göstərmişdi. O, düşmənin 6 təyyarəsindən 2-ni məhv etmiş, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 1941-ci ilin dekabrında Novqorod yaxınlığındakı Pustinka kəndi uğrunda döyüşlərdə İsrafil Məmmədov misilsiz igidlik göstərmiş, ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Qafur Məmmədov, İdris Süleymanov da Şimali Qafqaz uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişlər.

1942-ci ildə Stalinqrad uğrunda döyüşlərdə azərbaycanlılar şücaətlə vuruşmuşlar. Baloğlan Abbasovun snayperlər qrupu, Həzi Aslanovun tank alayı böyük igidlik göstərmişdi. H.Aslanov 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. O, ikinci dəfə bu adı Brezina çayını keçərək Presini şəhərini və 508 yaşayış məntəqəsini azad etdiyinə görə almışdı.

Müxtəlif cəbhələrdə göstərdikləri rəşadətə görə 416-cı diviziya "Taqanroq diviziyası", döyüşçülərinin əksəriyyətini azərbaycanlılar təşkil edən 227-ci diviziya "Temryuk diviziyası", 77-ci diviziya, "Simferopol diviziyası" adını qazanmışdılar. 416-cı diviziya Qafqazdan Berlinə qədər döyüş yolu keçmiş, Berlinin zəbt olunmasında iştirak etmişdi. Polşa və Çexoslovakiyanın faşistlərdən təmizlənməsi uğrundakı döyüşlərdə göstərdiyi igidliyə görə görkəmli tarixçi alim, akademik Ziya Bünyadov da daxil olmaqla, 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Müharibə illərində ordu sıralarına nəinki azərbaycanlı kişilər, hətta qocalar və qadınlar da səfərbər olunmuş, ən çətin döyüşlərdə iştirak edərək qəhrəmanlıq göstərmişlər. Təyyarəçi Züleyxa Seyidməmmədova, snayper Ziba Qəniyeva, gəmi kapitanı Şövkət Səlimova və başqa qadınların şücaətləri dillər əzbəri olmuş, tarixə düşmüşdür. Əsir düşən həmyerlilərimiz isə partizan dəstələri tərkibində vuruşaraq faşistlərə qan uddurmuşlar.

Azərbaycanlılar partizan və müqavimət hərəkatında fəallıq göstərərək Krımda, Ukraynada, Belorusda, Polşada, Çexoslovakiyada, Macarıstanda, Yuqoslaviyada və İtaliyada partizan dəstələri sıralarında, Fransa antifaşist müqavimət hərəkatında igidliklə vuruşmuşlar. Ukraynada 400 azərbaycanlı partizan dəstəsi təşkil etmiş, 3 mindən çox soydaşımız isə müqavimət hərəkatında iştirak etmişdir. Onlardan Fransanın milli qəhrəmanları olan Əhmədiyyə Cəbrayılovun və Nuru Abdullayevin adları yaddaşlarda qalmışdır. Ə.Cəbrayılov həm də Fransanın 5 ordeninə layiq görülmüşdü. Mehdi Hüseynzadə Yuqoslaviyada əfsanəvi igidlik göstərmişdi. O, 1000 nəfərdən çox zabiti məhv etmiş, 700 nəfər hərbi əsiri azad etmişdi. Ölümündən sonra - 1957-ci ildə ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Azərbaycandan cəbhəyə səfərbər olunan 700 min adamdan yarıdan çoxu həlak olmuş və itkin düşmüş, 123 nəfər isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdı. Müharibə illərində bütün Bakı ölkə neftinin 70-75%-ni, benzinin 85-90%-ni verirdi. 1941-1945-ci illərdə Bakı ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi. Bakı döyüşən ordunun cəbbəxanalarından birinə çevrilmişdi. Bakı "Katyuşa" raketi, "Şpakin pulemyotu" istehsal edir, burada "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Ümumən Bakıda 130-dan çox silah və hissələri hazırlanırdı.

Müharibə illərində Azərbaycanın elm xadimləri də müxtəlif problemlərin uğurlu həlli yolunda səylə çalışırdılar. Məşhur kimyaçı alimlərimizin, o cümlədən Y.H.Məmmədəliyev, V.S.Qutırya, Ə.M.Quliyev, V.H.İsmayılov, V.S.Əliyev və başqalarının birgə səyi, əməkdaşlığı nəticəsində ən yüksək oktanlı benzin və sürtkü yağları növləri alınmışdır. Kimyaçı alimlər müharibə illərində 38 növ sürtkü yağı, 9 adda təyyarə benzini və 8 növ dizel yağı istehsalını təşkil etmişlər. SSRİ-nin ən məşhur kimyaçı alimləri içərisində layiqli yer tutan Y.Məmmədəliyev 90-dan çox ixtira və kəşfə nail olmuşdur. Onun qələbədə xüsusi rolu təqdirəlayiqdir. O, ən yüksək oktanlı təyyarə benzini, donmayan mühərrik və sürtkü yağları, "Katyuşa" silahı üçün xüsusi mərmilər və başqa qiymətli komponentlər ixtira etmişdi. Həmin ixtiralardan həm müharibədə, həm də dinc quruculuq sahələrində geniş istifadə etmək olurdu.

Müharibə dövründə respublikamızın sənaye müəssisələri qələbə naminə cəbhəni lazımi məhsullarla aramsız olaraq təmin edirdilər. Azərbaycanın yüngül sənayesi cəbhənin ehtiyacları üçün təxminən 30, yeyinti sənayesi 50, yerli sənayesi isə 200 növə qədər məhsul istehsal edirdi. Müharibə illərində yüngül sənaye müəssisələri cəbhə üçün 1.419 min şinel, 4.227 min komplekt yay paltarı, 3.097 min cüt alt köynəyi, 1.977 min cüt ayaqqabı, 1.417 cüt komplekt pambıq köynək, 1.417 min patron çantası və s. göndərmişdi. Ümumilikdə, cəbhəyə respublikamızdan 125 vaqon isti paltar yollanılmışdı. Eyni zamanda, ordu üçün respublikamızdan dava-dərman, tibb preparatları və lazımi başqa dərmanlar da göndərilmişdi. Azərbaycan vətəndaşları 1941-1943-cü illərdə müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 311 milyon manatlıq istiqraz vermişdilər.

Bir sözlə, 1941-1945-ci illər Böyük Vətən Müharibəsində Azərbaycan xalqı daha çox itkilərə və hədsiz məhrumiyyətlərə məruz qalmış, düşmən üzərində qələbə qazanılması üçün özünün var qüvvəsini əsirgəməmişdir. Bu müharibədə Azərbaycan xalqı öz layiqli sözünü demişdir.

## Allah rəhmət eləsin

25032 saylı hərbi hissənin komandanlığı mayor Ceyhun Xəlilova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İDMANÇI LƏYAQƏTİ - HƏRBÇİ ŞƏRƏFİ

***Qəzetimizin demək olar ki, bütün saylarında Daxili Qoşunların hərbi hissələrində intizamı, nümunəviliyi ilə seçilən hərbi qulluqçularımız barədə materiallar dərc olunur. Bu sayımızda Daxili Qoşunların idman şərəfini layiqincə qoruyan, nümunəviliyi və bacarığına görə fərqlənən leytenant Natiq Allayarovun xidmətini işıqlandırmaq qərarına gəldik. O, 67987 saylı hərbi hissənin Xüsusi təyinatlı dəstəsində qrup komandiri vəzifəsindədir.***

1980-ci il mayın 21-də Lənkəran rayonunun Zövlə kəndində dünyaya gələn Natiqin uşaqlıq və yeniyetməlik illəri də orada keçib. 1997-ci ildə kənd orta məktəbini bitirib. Müddətli həqiqi hərbi xidmətini Müdafiə Nazirliyinin Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissəsində keçib. Hərbi xidməti başa vurduqdan sonra, 2003-2008-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alıb.

O, hələ 10 yaşında ikən idmanın sərbəst güləş növü ilə məşğul olmağa başlayıb. İdmana olan sevgisi və öz üzərində çalışqanlığı nəticəsində 12 yaşında olarkən zona çempionu adını qazanıb. 2007-ci ildə



Dünya çempionatının mükafatçısı olduğuna görə "İdman ustası" adına layiq görülüb. 2001-ci ildən Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin üzvüdür. Ciu-citsu idman növü üzrə "II dan qara kəmər" sahibidir. Dəfələrlə ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edən, leytenant N.Allayarov qoşunların idman şərəfini ucaldıb. 2018-ci ilin yanvarında Bakıda keçirilən beynəlxalq turnirdə 9 ölkə arasında rəqabətdə birinciliyi qazanmağı bacarıb.

İdmana sevgisi çox olsa da, hərbi xidmətə marağını heç zaman gizlətmirdi. Artıq peşəkar idmançı kimi tanınan Natiq 2012-ci il fevralın 14-də Daxili Qoşunların 67987 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayır. İki ildən sonra, yəni 2014-cü ildə "gizir" hərbi rütbəsi verilməklə Xüsusi təyinatlı dəstənin snayper qrupunda qrup komandirinin müavini vəzifəsinə təsdiq olunur. Həmin vəzifədə olarkən 2015-ci ildə Daxili İşlər Nazirinin əmrilə "leytenant" hərbi rütbəsinə layiq görülüb. 2017-ci ilin noyabrından Xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun komandiri vəzifəsindədir.

Qeyd edək ki, o, idmançı kimi nə qədər peşəkardırsa, hərbçi kimi də bir o qədər tələbkar və intizamlıdır. Qrup komandiri kimi şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığına, hərbi intizamına, mənəvi vəziyyətinə, qrupun silahlarının döyüş texnikası, əmlaklarının qorunub saxlanılmasına və döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsinə ciddi nəzarət edir. Şəxsi heyətlə döyüş və ictimai-siyasi hazırlıq məşğələlərini keçirir, yarımqrup komandirlərinin tabeliyində olanlara düzgün təlim keçmələrinə diqqət yetirməyi unutmur. Bütün hərbi qulluqçulara sağlam həyat tərzi sürməyi tövsiyə edən gənc zabit sağlamlığın əsas şərtini məhz idmanla əlaqələndirir: "Biz hərbçilər Vətənin müdafiəçiləriyik. Məhz buna görə də sağlamlığımızın qeydinə qalmalı, pis vərdişlərdən uzaq olmalıyıq. Sağlamlığın ilkin şərtlərindən biri də idmandır. Mən həm idman nailiyyətlərimə, həm də Daxili Qoşunların zabiti olduğuma görə fəxr edirəm. Tabeliyimdə olan hərbi qulluqçuları da bu istiqamətdə formalaşdırmağa çalışıram. Bu gün hər birimiz peşə vərdişlərimizi təkmilləşdirməli, komandanlıq tərəfindən bizə göstərilən etimadı doğrultmaq üçün daima çalışmalıyıq".

**leytenant N.Ağayeva**

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000